



"Xızırzində" adındakı "zində" sözü "sağ", "diri" anlamındadır ki, bu da qədim Şərq folklorunda tez-tez rast gəlinən "abi-zəmzəm" – "dirilik suyu" içmiş Xıdır (Xızır) peyğəmbərə işarədir.

# BEŞBARMAQ DAĞI: ƏFSANƏ, ZİYARƏTGAH, YOXSA İSTEHKAM?

***Xızırzində piri müsəlman Şərqinin ən müqəddəs ziyarətgahlarından biri kimi qəbul olunur***

*Bakı-Quba yolunun 95-ci kilometrliyində əzəmətli bir dağ yerləşir. Ziyarətgaha çevrilən bu dağın adı "Beşbarmaq"dır, el arasında buraya Xızırzində (Xıdırzində) piri də deyilir. Rəvayətə görə, Xıdırzində baba eramızdan əvvəl, İskəndər şahın dövründə yaşayıb. Dirilik suyundan içməklə bir növ əbədiyaşarlıq, ölümsüzlük qazanan Diri Baba daha sonra Siyəzən rayonu yaxınlığındakı "Beşbarmaq" deyilən bu dağda məskunlaşıb.*

*Öncə on minlərlə ziyarətçinin seçiminə çevrilən bu məkanın nə üçün yazımızın ünvanına çevrilməsinə aydınlıq gətirək. 8 iyun 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun yaradılması haqqında sərəncam imzaladı. Sərəncama əsasən, Siyəzən rayonunun Qalaşıxı kəndində yerləşən Beşbarmaq dağı təbiət abidəsinin ərazisi "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edildi.*

*Sərəncamda o da bildirilirdi ki, qoruğun fəaliyyəti ilə bağlı zəruri xərclər Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçiriləcək. Məsələyə anında reaksiya verən Agentlikdən mətbuata "Beşbarmaq dağı"nın ölkənin milli tarixi üçün böyük əhəmiyyət kəsb etdiyi açıqlandı. Qurumun mətbuat xidmətindən bildirildiyinə görə, hər il bu ərazini on minlərlə yerli və xarici turist ziyarət edir. Dövlət Turizm Agentliyinin həyata keçirdiyi sahə tədqiqatları və müşahidələrindən ortaya çıxan nəticələr göstərir ki, ərazi dini-mənəvi destinasiya olmaqla yanaşı, həm də unikal təbiət abidəsi və təbii irs nümunəsi kimi təkrarsız təbii landşafta malikdir. Bu üzdən məkanın qorunmasını dövlət öz üzərinə götürüb.*

## *Şanlı tariximizin əvəzsiz yadigarı...*

Əfsanəyə görə, Beşbarmaq dağı bir vaxtlar üç qardaşın pənah yeri, məskəni, yurd-yuvası olub. Qardaşlar bir-birinə can deyib can eşidər, arxa, dayaq durarmış. Böyük qardaşın sözü, tapşırığı balacalar üçün qanun imiş. Onun adı Xıdır Zində, ortancıl qardaşın adı Xıdır İlyas, sonbeşiyin adı isə Xıdır Nəbi olub. Günlərin bir günü böyük qardaş kiçik qardaşı yanına çağırır. Ona bir xəlbir uzadıb deyir ki, susuzluqdan dili-dodağı quruyub. Xıdır Nəbi xəlbirlə su gətirmək üçün Xəzərə tərəf yüyürür. Xəlbiri suya salıb nə qədər əlləşirsə, su götürə bilmir. Böyük qardaş kiçik qardaşından bir soraq gəlmədiyini görüb bu dəfə su dalınca Xıdır İlyası yollayır. Ortancıl qardaşın da gəlib çıxmadığını görüb təşvişə düşür. Demə, böyük qardaşlarının tapşırığını yerinə yetirə bilməyəcəklərini görən sonbeşiklə ortancıl qardaş daşa dönmələri üçün Allaha yalvarıb-yaxarırmış. Belə rəvayət olunur ki, Xızır-Zində dağı ilə üzbəüz olan Xəzərdəki sal qayalar daşa dönmüş həmin qardaşlardır.

Azərbaycan Ensiklopediyasının II cildində isə belə yazılıb: "Beşbarmaq təqribən IV-VII əsrlərə aid

müdafiə səddi olub. Bu sədd Beşbarmaq dağının ətəklərindən Xəzər dənizinə qədər uzanıb. Dağın ətəyində iri çiy kərpicdən tikilmiş sədd bir-birindən iki yüz metr aralı iki divardan ibarət idi. Alban tarixçisi Musa Kalankatlı Beşbarmaq səddinin Sasani padşahı Yezdəgirdin dövründə (437-457) çəkildiyini qeyd edib. Beşbarmaq köçərilərin hücumunun qarşısını almaq üçün inşa edilmişdi..."

Deməli, Xızır-Zində baba dağı müqəddəs ziyarətgah olmaqla yanaşı, həm də ulu, şanlı tariximizin əvəzsiz yadigarlarındandır.



**BAKI-SİYƏZƏN YOLUNUN 95-Cİ KİLOMETRLİYİNDƏ YERLƏŞƏN DAĞ YOLUN KƏNARINA ÇOX YAXIN GÖRÜNSƏ DƏ, PİRƏ GETMƏK XEYLİ ZAMAN ALIR. DAĞA QALXMAQ O QƏDƏR DƏ ASAN DEYİL. "BEŞBARMAQ PİRİ" DƏNİZ SƏVİYYƏSİNDƏN 500 METR YÜKSƏKLİKDƏDİR**

### *Müxtəlif mənbələr "Beşbarmaq dağı" haqqında ...*

Müxtəlif mənbələrdə bu tarixi məkan haqqında müxtəlif fikirlər yer alıb. Məsələn, Abbasqulu ağa Bakıxanov tariximizin əvəzsiz qaynaqlarından sayılan məşhur "Gülüstani-İrəm" kitabında yazırdı ki, Quranda adı çəkilən Məcməül-bəhreyn, yəni iki dəniz qovşağı Şirvan vilayətində olub. Musa və Xızır peyğəmbərlərin səxrəsi (qayası) də oradadır. Adına və əlamətlərinə görə, bu qaya Xızır-Zində ola bilər və həmin "Xızır-Zində" xalq arasında "Xıdır-Zində" kimi tələffüz edilir. A.Bakıxanov fikrinin şərhi zamanı digər müəlliflərin də bu barədə elmi mülahizələrinə əsaslandığını vurğulayır.

"Xızır-Zində" adındakı "zində" sözü "sağ", "diri" anlamındadır ki, bu da qədim Şərq folklorunda tez-tez rast gəlinən "abizəmzəm" – "dirilik suyu" içmiş Xıdır (Xızır) peyğəmbərə işarədir. Ona görə də Siyəzən bölgəsi ərazisində, Xəzər dənizi sahilində "Beşbarmaq" adlı beş çılpaq zirvədən ibarət olan dağa xalq arasında "Xızırzində baba" və yaxud "Xıdırzində dağı" deyilir. "Beşbarmaq" sözü ilə bağlı da müxtəlif fikirlər, rəvayətlər dolaşır. Araşdırıcılardan Rəmzi Yüzbaşov qeyd edir ki, "beşbarmaq" sözündəki "barmaq" ifadəsi "şiş təpə" anlamındadır. Başqa bir ehtimala görə isə Beşbarmaq "baş barmaq" kimi təqdim olunur. Belə ki, xalq etimologiyasında "baş barmaq" böyük qardaş mənasındadır.

Abşeron yarımadasının qərb hissəsində, Bakı-Şamaxı yolunun cənubunda yerləşən Üçtəpə dağı "üç qardaş", Beşbarmağın qarşısında, dəniz istiqamətində yerləşən qaya isə dördüncü qardaşdır. Bura tarixi mənbələrdə "Musa qayası" kimi də təqdim olunur.

Böyük Azərbaycan səyyahı Əbdülrəşid əl-Bakuvi yazır ki, Quranın "əl-Kəhv" ("Mağara") surəsində haqqında danışılan Musa və Xızır peyğəmbərlərlə bağlı əhvalat məhz bu ərazidə cərəyan edib. Belə ki, Musanın xidmətində olan Yuşə ibn Nusun yemək üçün götürüb sonra yaddan çıxartdığı balıq iki dənizin qovuşduğu bu yerdə suya atılaraq yenidən dirilib.

İspaniyanın Kataloniya vilayətinin 1375-ci ildə tərtib olunmuş Xəzər dənizinə aid xəritəsində Beşbarmaq ("Barmaq") o dövrün tanınmış alimi, XVII əsrdə indiki Almaniya ərazisində mövcud xırda feodal dövlətlərindən birinin – Qolştiniyanın hersoq sarayında çalışan Adam Olearinin xəritəsində isə "Barmax" kimi göstərilir.

Tarixçi H.Abdullayev isə yazır ki, XVIII əsrin ikinci yarısında Azərbaycandakı xanlıqlar arasında mühüm yer tutan Quba xanlığının tərkibinə 8 mahal daxil idi. Bu mahallardan biri Bərmək adlanırdı. Mahalın indiki ərazisi Xızı ilə Siyəzən bölgələrinin qovuşuğundakı uca dağların qoynundadır. Arxiv sənədlərindən məlum olur ki, burada 600-









dən çox evi əhatə edən 24 kənd olub. Mahalın niyə məhz Bərmək adlandırılmasının da maraqlı tarixçəsi var. A.Bakıxanovun, Bartoldun, Z.Bünyadovun əsərlərində Bərməklər haqqında müəyyən məlumatlar var. Bu mənbələrdə qeyd olunur ki, Bərmək orta əsrlər Azərbaycanında nüfuzları ilə seçilən məşhur sülalənin soyadıdır. Bu soyaddan olan sonuncu vəzir Cəfər Bərməki xəlifə Harun ər-Rəşid tərəfindən öldürülmüş, onun sağ qalan ailə üzvləri uzaq Bağdaddan qaçıb canlarını qurtararaq bu yerlərdə məskunlaşmışlar. Çox güman ki, illər keçdikcə "bərmək" ifadəsi dəyişərək "barmaq" kimi tələffüz olunub.

### *Bir fincan suyun möcüzəsi...*

Yuxarıda qeyd etdiyimiz kimi, "Beşbarmaq dağı"na el arasında Xızırzində piri də deyilir. Bakı-Siyəzən yolunun 95-ci kilometrliyində yerləşən dağ yolun kənarına çox yaxın görünsə də, pirə getmək xeyli zaman alır. Dağa qalxmaq o qədər də asan deyil. "Beşbarmaq piri" dəniz səviyyəsindən 500 metr yüksəklikdədir. Dağa kənardan baxanda 5 barmaq formasının siluetini görmək mümkündür.

Tədqiqatçılara görə, dağ tektonik hərəkətlərin təsirindən süxurların sıxılması nəticəsində yaranıb. Qayalar üzərində çoxsaylı boşluqlara rast gəlmək mümkündür.

Deyilənə görə, əvvəllər bura avtomobil yolu olmayıb. Ziyarətə gələnlər həmin yolu piyada qət edirmiş. Amma indi bir qədər təhlükəli olsa da, pirin yaxınlığına qədər avtomobillə qalxmaq mümkündür.

Ətrafda ziyarətçilərin istirahəti üçün çox sayda alaçıq tipli yerlər var. Yay mövsümündə adətən pirə ziyarətçi axını azalır. İnsanlar deyirlər ki, ilin bu vaxtı həmin ərazilərdə ilan çox olur.

Pirə qalxan yolda ara-sıra qayaların arasında əncir ağacları gözə dəyir. Ağacların üzərinə ziyarətçilər müxtəlif rəngli parçalar bağlayıb. İnanca görə, bu parçaları ürəyində arzu tutaraq bağlayıblar. Əgər həmin insanın arzusu yerinə yetsə, pirə nəzir gətirməlidir. Pirin abadlaşdırılması da yığılan ianələr hesabına reallaşır.

Zirvədə isə kiçik bir otaq var. Burada bir qadın ziyarətçilərə pir haqqında məlumat verir, yəni turist dili ilə desək, bələdçilik edir. Ziyarətçilər otaqdakı fincanlarda qoyulan suya toxunaraq, həmin suyu üzlərinə və saçlarına çəkirlər. Deyilənə görə, su müqəddəs sudur və belə edilən təqdirdə onlar bütün niyyətlərinə çata bilərlər.

### *"Beşbarmaq" bir rəmzdir...*

Sonda oxucularımız üçün də maraqlı olacağını nəzərə alıb konspiroloq-yazıçı Həmid Herisçinin pirlə bağlı fikirlərini təqdim edirik. Onun sözlərinə görə, pir haqqında birmənalı məlumatlara rast gəlmək mümkün deyil. Ancaq Xızırzində pirini fantaziya, uydurma saymaq da olmaz: "Buranı vulkan dağıdıb, yeraltı qüvvələr meydana çıxıb və belə möhtəşəm bir abidə yaranıb. Bu, ilk növbədə rəmzdir, ikincisi, hədəfdir.

Çox maraqlıdır ki, Bakı ilə "Beşbarmaq dağı" arasında düz 100 kilometr məsafə var. Bu da düşündürücüdür. Bir yandan isə mənə elə gəlir ki, həmin beş barmaq solaxay əlindir. Mən fikir vermişəm, sol əl paranormallığa uyğundur. Bu ziyarətgahın insanlara təsir gücü var. İnsanlar dağa tərəf gedirlər. Bu da paranormal enerjinin mövcudluğunu göstərir. Diqqət edin, bütün Azərbaycan bu ərazidən keçəndə orada dayanır. İndi bilmək olmur ki, dağdan, yoxsa Allahdan kömək istəyirlər. Ancaq xalqın inanc yerlərindən biridir. Eyni zamanda rəmzdir. Bizim rəmzlərimiz var - Qız qalası, İçərişəhər, Buta... Biri də "Beşbarmaq"dır". Sadəcə, onu vaxtında çox tirajlamayıblar".

H.Herisçi güman edir ki, ora dərvişlərin məkanı olub: "Həm də istehkamlar imiş. Məncə, Xızırzində ətrafında qazıntı aparılmalı, öyrənilməlidir. Adətən elə yerdə qızıl basdırırlar. Mənə elə gəlir, xəzinələr, dəfinələr də çıxa bilər". ❖

**Fəxriyyə Abdullayeva**